

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 133 (24.020)

19 iyul 2022-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə geniş tərkibdə görüşü keçirilib. Görüşdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr ikitərəfli əməkdaşlıq, eləcə də Şərq Tərəfdaşlığı çərçivəsində çox uğurla inkişaf edir. Siyasi münasibətlərin inkişafı baxımından, sözün əsl mənasında, çox yaxşı nailiyyətlər var. Dövlətimizin başçısı əminliyini bildirib ki, gələn illərdə icrası planlaşdırılan layihələr ticari əməkdaşlığı genişləndirəcək.

Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen səmimi qəbula görə minnətdarlıq edib. Bildirib ki, bu gün imzalanacaq Anlaşma Memorandumunda enerji sektorunda etibarlı tərəfdaşlıq, eləcə də orta və uzun perspektivdə bərpa olunan enerji məsələləri xüsusi qeyd edilir.

İyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar, sonra mətbuata bəyanatlarla çıxış ediblər.

## Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

Xüsusi istedadı olan aşağıdakı gənclərin adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılsın və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülsünlər:

Abdullayeva Röya Xəyal qızı - Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi, kikboksinq idmanı üzrə

Qafarov Kamal Əli oğlu - Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi, STEAM təhsili üzrə

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 iyul 2022-ci il*

*Şərur rayonunda son illər aparılan genişmiqyaslı abadlıq-quruculuq tədbirləri müxtəlif sahələri əhatə edir, yaşayış məntəqələri müasirliyə qovuşur. İnşa olunan kənd və xidmət mərkəzləri, təhsil, mədəniyyət və səhiyyə ocaqları, çəkilən yollar kəndlərin simasını başdan-başa dəyişib.*

## Şərur rayonunun Həmzəli kəndində kompleks quruculuq işləri görülür

Quruculuq tədbirlərindən Şərur rayonunun Həmzəli kəndinə də pay düşüb. Kənddə kompleks quruculuq tədbirlərinə başlanmasını sakinlər kənd adamlarına göstərilən dövlət qayğısı kimi dəyərləndirirlər. Bu ilin mart ayından etibarən məktəb binasının yenidən qurulmasına başlanılıb. Müasir layihə əsasında tikilən bina iki mərtəbədən ibarət olacaq. Binanın hər iki mərtəbəsində istilik xətləri quraşdırılıb, hazırda suvaq işləri yekunlaşmaq üzrədir. Pəncərələrin blokları quraşdırılır, dam örtüyü isə tam hazır vəziyyətdədir. 198 yerlik məktəbdə 11 sinif otağı, kimya və fizika laboratoriyaları, 2 elektron lövhəli sinif, şahmat sinfi, kompüter otağı, psixoloq və müəllimlər otaqları, hərbi kabinə, STEAM kabinəsi, kitabxana, 2 qarderob və idman zalı yerləşəcək.





Digər quruculuq obyekti məktəb binasının yaxınlığında olan kənd mərkəzidir. İkimərtəbəli kənd mərkəzində hər iki mərtəbənin dəmir-beton sütunları qaldırılıb, tikinti işləri davam edir. Burada 3 feldşer-mama məntəqəsi otağı, kənd icra nümayəndəliyi, bələdiyyə, kitabxana, Yeni Azərbaycan Partiyasının ərazi ilk təşkilatı, polis və baytarlıq məntəqələri, rabitə evi, arxiv, klub, zal və qazanxana fəaliyyət göstərəcək.

Kənd camaatının böyük sevincinə səbəb olan daha bir amil isə kənddə xidmət mərkəzinin tikintisidir. Artıq mərkəz üçün binanın dəmir-beton sütunları qaldırılıb, hörgü işləri davam edir. Qeyd edək ki, mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları və 3 anbar kənd əhalisinin xidmətində dayanacaqdır.

Hər üç obyektin inşası Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinə həvalə olunub. İnşaat meydançalarına kifayət qədər texnika cəlb edilib. Vahid layihə əsasında inşa edilən obyektlərdə yerli tikinti materiallarından istifadəyə üstünlük verilir. İnşaatçılara normal iş şəraiti yaradılıb, onlar geyim, ayaqqabı və qoruyucu baş örtüyü ilə təmin olunub. Yeni quruculuq obyektləri kəndin simasını dəyişməklə bərabər, sakinlərin rahatlığına da öz təsirini göstərəcək.

**Heydər MƏMMƏDOV**

## Naxçıvanın ornitoloji turizm imkanları Böyük Britaniyada təbliğ olunur

*Böyük Britaniyanın Rutland vilayətində 15-17 iyul 2022-ci il tarixləri əhatə edəcək Qlobal Quş Müşahidəçiliyi (Global Bird Fair) turizm sərgisində Naxçıvanın ornitoloji turizm potensialı nümayiş etdirilir. Dünyanın 60-dan çox ölkəsinin 250-yə yaxın turizm şirkəti və təşkilatının qatıldığı sərgidə ölkələrin turizm imkanları və turizm məhsullarını tanıdılmaq qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunur.*




1988-ci ildən bəri keçirilən beynəlxalq sərgidə hər il Avropa, Asiya, Afrika və Amerikanın bir çox ölkələri iştirak edir. Bu il Azərbaycan ilk dəfə olaraq Qlobal Quş Müşahidəçiliyi sərgisində təmsil olunur. Sərgidə vahid Azərbaycan stendi altında "Naxçıvan Muxtar Respublikası" stendi təşkil edilərək muxtar respublikanın bu sahədə turizm potensialı təbliğ olunur. Sərginin məqsədi muxtar respublikamızın turizm potensialını, burada olan nadir quş növlərini sərgi iştirakçılarına tanıtmaq və quş müşahidəçiliyi turizmi üçün əlverişli yerləri təbliğ edərək diyarımıza turist cəlb etməkdən ibarətdir.





Sərgi çərçivəsində Azərbaycanın ornitoloji turizm imkanlarının təqdimatı məqsədilə təşkil olunan xüsusi seminarda ziyarətçilərə muxtar respublikamızdakı biomüxtəliflik, əsas quş növləri və quş müşahidəsi üçün əlverişli mövsümlər haqqında məlumat verilib.

Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən hazırlanmış quş müşahidəçiliyi və turizm potensialını əks etdirən bukletlər, "Naxçıvan Muxtar Respublikasının xüsusi mühafizə olunan təbiət əraziləri", "Naxçıvan təbiəti" albom-kataloq, "Naxçıvan 4 fəsildə", "Naxçıvan Şərqin əfsanəsi" kitabları, eləcə də muxtar respublikada fəaliyyət göstərən hotellər haqqında çap məhsulları, həmçinin yerli istehsal məhsullarımızdan "Badamlı" mineral suyu, muxtar respublikanın turizm potensialı ilə bağlı videoçarxlar sərgidə nümayiş etdirilmişdir.

Sərgi zamanı xarici şirkətlərə Naxçıvan Muxtar Respublikası haqqında geniş məlumat verilərək buradakı yerli turoperatorlarla əlaqələrin qurulmasına köməklik göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

## İpoteka kağızının qeydiyyatı elektronlaşdırılıb

*Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən ipoteka kağızının tərtibinin və qeydiyyata alınmasının elektron şəkildə həyata keçirilməsinə başlanılıb. Əsas məqsəd elektron xidmətlərin tətbiqini genişləndirməklə vətəndaş məmnunluğunu artırmaq və operativliyi təmin etməkdir.*

Proses yeni yaradılmış İpoteka Kağızının Elektron Sistemi *(ikes.emlak.gov.az)* vasitəsilə həyata keçirilir. Sistem daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının ipoteka qoyanlar tərəfindən tərtib edilməsi, həmin kağızın ipoteka saxlayanların adına qeydiyyata alınması, habelə ipoteka kağızına xitam verilməsi ilə bağlı müvafiq əməliyyatları elektron formada aparmağa imkan verir.

İpoteka qoyan "Elektron hökumət" portalında yaratdığı elektron kabinet vasitəsilə sistemdə müəyyən edilmiş formaya uyğun müvafiq məlumatları (ipoteka müqaviləsi əsasında) doldurmaqla ipoteka kağızını tərtib edir. İpoteka kağızı ipoteka qoyan tərəfindən o, üçüncü şəxs olduqda, həm də əsas öhdəlik üzrə borclu tərəfindən gücləndirilmiş elektron imza ilə imzalanır. Əməliyyatların aparılması ilə bağlı ödənişlər real vaxt rejimində elektron sistem vasitəsilə həyata keçirilir. İpoteka kağızı qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun tərtib edildiyi halda dövlət qeydiyyatına alınır və ipoteka saxlayanın ipoteka kağızına mülkiyyət hüququ rəsmiləşdirilir. Dövlət qeydiyyatına alındığı gün bu barədə ipoteka saxlayana və ipoteka qoyana, o, üçüncü şəxs olduqda, həm də əsas öhdəlik üzrə borcluya elektron sistem vasitəsilə bildiriş göndərilir.

Qeyd edək ki, sistem istifadəyə verilənədək ipoteka kağızları yalnız kağız daşıyıcıda tərtib olunurdu. Qeydiyyat prosesinin elektronlaşdırılması bu sahədə xidmət keyfiyyətinin artırılmasına və əhalinin rahatlığının təmin edilməsinə mühüm töhfə verəcək.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

*Tarixi minilliklərə söykənən müasir elmi-mədəni mühitimiz bu gün sürətli inkişaf dövrünü yaşayır. Azərbaycan ədəbi yaradıcılığında, incəsənətində, tarixi və milli-mənəvi dəyərlərinin qorunub yaşadılmasında özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikasında şahid olduğumuz yüksək inkişaf və sabitlik, quruculuq, bəşəri dəyərlərə ehtiram, digər sahələrdə olduğu kimi, elmi və mədəni mühit arenasında da özünü bariz şəkildə göstərir. Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu sabit siyasi strategiya, elm-təhsil yolunda atılan məqsədyönlü addımlar bu gün muxtar respublikamızın bir çox sahələrini, ən əsası isə mövzumuzun əsas ideya istiqamətini təşkil edən, ölkəmizin ən nüfuzlu təhsil ocağı olan Naxçıvan Dövlət Universitetini də əhatə etməkdədir.*



*Təhsil millətin gələcəyidir*

# Təhsilin yeni inkişaf tarixinə misilsiz töhfələr vermiş maarifçilik məktəbi

Bu gün qürurla, böyük fəxrlə deyə bilərik ki, sözügedən uğurlu reallıqlar ölkəmizin ən qabaqcıl, prestijli və bir-birindən zəngin yenilikçi ideyaların ünvanı olan Naxçıvan Dövlət Universitetində mövcuddur. Bu mənada, elə ölkə Prezidenti cənab İlham Əliyevin ölkəmizin ali təhsil müəssisələri sırasında özünəməxsus yeri olan Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin keçirilməsi haqqında imzaladığı Sərəncamda deyilən ***“Naxçıvan Dövlət Universiteti zəngin maarifçilik ənənələrinə malik Naxçıvan diyarında yüksəkixtisaslı kadrların yetişdirilməsinə, elmi mühitin formalaşdırılmasına və bütövlükdə, regionun tərəqqisinə öz müsbət təsirini göstərmişdir. Onun məzunları bu gün Azərbaycanda milli dövlət quruculuğunun ən müxtəlif sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi, elmi və mədəni potensialının gücləndirilməsinə layiqli töhfələr verirlər”*** yüksək fikri bir daha dediklərimizi təsdiq edir.

55 yaşlı Naxçıvan Dövlət Universiteti böyük tarixi inkişaf yolu keçmişdir. Keçdiyi maarifçilik və elm-təhsil yolunun 50 ildən artıq şərəfli tarixçəsinə nəzər salaraq qeyd edək ki, bu ali təhsil ocağı 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayıb, 1972-ci ildə isə həmin filialın əsasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılıb. 1990-cı ildə isə daha böyük status qazanaraq Naxçıvan Dövlət Universiteti kimi öz fəaliyyətini davam etdirməkdədir. Ötən müddət ərzində maddi-texniki və tədris bazası yaxşılaşdırılmış, 108 hektar sahədə 16 tədris korpusu, elektron kitabxana, konservatoriya, Sosial Xidmət Mərkəzi, xəstəxana, olimpiya idman kompleksi, Baytarlıq Təbabəti Klinikası, Tələbə evi yaradılmışdır. Bununla yanaşı, diqqətə çatdıraq ki, belə korpusların sırasına tezliklə daxil ediləcək ölkə miqyasında bir ilk olan Texnologiyalar Parkının tikinti-quruculuq işləri sürətlə davam etdirilir.




Azərbaycan maarifçiliyinin və ali təhsil sisteminin inkişafında özünəməxsus rolu olan bu təhsil müəssisəsində 1967-68-ci tədris ilində, yəni fəaliyyətə başladığı ilk illərdə 3 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, bu gün artıq universitetdə 58 ixtisas üzrə bakalavr, 46 ixtisas üzrə magistr, 31 ixtisas üzrə doktorant hazırlığı aparılır.

Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişafında böyük xidmətləri olan Naxçıvan Dövlət Universiteti zəngin maarifçilik və milli-mədəni mühitimizin layiqli davamçılarından olub. Ötən əsrdən etibarən ölkəmizdə mövcud olan qeyri-sabit siyasi proseslər, erməni qəsbkarlarının qaldırdığı saxta torpaq iddiaları blokada şəraitində yaşayan diyarımızı ağır hadisələrin sınağına çəkməkdə idi. Belə bir şəraitin tüğyan etdiyi zamanda böyük xilaskar, ulu öndər Heydər Əliyev Azərbaycan cəmiyyətinin elm-təhsil yolunda apardığı mübarizənin böyük siyasi məsuliyyətini öz çiyinlərinə çəkərək bu elm məbədgahının – Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyinin qeyd olunmasında misilsiz xidmətlər göstərmişdir. 1992-ci ildə, ali təhsil ocağının 25 illik yubiley tədbirində ulu öndər çıxış edərək deyib: ***“Naxçıvan qədim tarixə malik olan bir diyardır, qədim Azərbaycan torpağıdır. Naxçıvan torpağında əsrlərboyu böyük-böyük şəxsiyyətlər yetişmiş, meydana gəlmiş və dünya mədəniyyətini, dünya elmini zənginləşdirən, dünya elminə böyük töhfələr verən insanlar olmuşdur. Fəqət Naxçıvanda ali təhsil ocağı, ali məktəb ilk dəfə 25 il bundan əvvəl yaranmış, bu da ki, qeyd olunduğu kimi, Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi 1967-ci ildə, sonra isə 1972-ci ildə müstəqil bir ali məktəb kimi təsis olunmuşdur və artıq 25 ildir ki, fəaliyyət göstərir.***

***Biz bu gün böyük məmnuniyyət hissi ilə qeyd etməliyik ki, bu ali təhsil məktəbinin yaranması və 25 illik fəaliyyəti Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında, mədəniyyətində, sosial həyatında, onun inkişaf etməsində böyük rol oynamış və Azərbaycan Respublikasının yüksək təhsilli kadrlarla təmin olunmasına öz töhfəsini vermişdir”.***

Naxçıvan Dövlət Universiteti, sözün həqiqi mənasında, ölkənin ən nüfuzlu, qabaqcıl təhsil ənənələrinə malik elm məbədgahlarından biri kimi 55 illik fəaliyyətinin bütün dövrlərində ölkə ictimaiyyətinə, ulu öndərimizin də dediyi kimi yüksəkixtisaslı kadrlar bəxş etmişdir. Bu mənada, qeyd etmək lazımdır ki, dahi rəhbərin əsasını qoyduğu müdrik siyasətin böyük sədaqət və ehtiramla davam etdirildiyi Naxçıvan Muxtar Respublikasında Ali Məclisin Sədri cənab Vasif Talıbovun müəyyənləşdirdiyi yüksək təhsil strategiyasından bu gün Naxçıvan Dövlət Universitetinə də pay düşüb. Muxtar respublika rəhbəri qədim diyarımızda peşəkar kadrların hazırlanmasında, elm və təhsil sahəsində böyük uğurların qazanılması üçün ali təhsil ocağına diqqət və qayğını prioritet məsələyə çevirib. Belə ki, Ali Məclis Sədrinin 2017-ci il 14 yanvar tarixdə “Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalaması və yubileylə bağlı “Tədbirlər Planı”nı təsdiq etməsi bu qayğının ən böyük ifadəsidir. Muxtar respublika rəhbəri universitetin 50 illik yubiley tədbirində diqqəti ali təhsil ocağının səmərəli fəaliyyətinə cəlb edərək deyib: ***“Bu gün qətiyyətlə demək olar ki, Naxçıvan Dövlət Universitetinin keçdiyi yol zəngin maarifçilik ənənələrinə malik olan Naxçıvan Muxtar Respublikasında təhsilin yeni inkişaf tarixidir. Universitet muxtar respublikada ali təhsil sisteminin inkişafı ilə yanaşı, milli şüurun formalaşmasında, gənclərin vətənpərvərlik tərbiyəsində də mühüm xidmətlər göstərmiş, burada peşəkar milli kadrlar hazırlanmışdır. Artıq Naxçıvan Dövlət Universitetinin məzunları Azərbaycanda milli dövlət quruculuğunun müxtəlif sahələrində çalışır, sosial-iqtisadi inkişafa öz töhfələrini verirlər”.***

Universitetin müasir inkişaf mərhələsi, fəaliyyət istiqamətləri, yeni infrastrukturun qurulması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun digər sahələrdə olduğu kimi, təhsilin inkişafında da ümummilli lider Heydər Əliyev siyasətinə sədaqətin bəhrələridir. Bir-birindən gözəl tədris korpuslarının inşa edilməsi və ya yenidən qurulması, onların müasir tədris vasitələrilə təmin edilməsi sahəsində görülən işlər Ali Məclis Sədrinin universitetin professor-müəllim heyətinə, çoxminli tələbə kontingentinə qayğısının ifadəsidir. Təsadüfi deyil ki, doğma universitetimiz ölkə miqyasında, o cümlədən beynəlxalq təhsil arenasında da qarşılıqlı əməkdaşlıq sahəsində əldə etdiyi uğurlarla bu gün dünya ölkələrinin diqqət mərkəzindədir. Məlumat üçün bildirək ki, son illərdə Naxçıvan Dövlət Universiteti əcnəbi tələbələrin sayına görə ölkəmizdə fəaliyyət göstərən ali təhsil ocaqları sırasında ilk yerdədir. Belə ki, təhsil ocağında Cənubi Koreya, Pakistan, Türkiyə, Özbəkistan, Nigeriya və bir neçə ölkənin vətəndaşları müvafiq ixtisaslar üzrə təhsil alırlar. Üstünlüyü isə qardaş Türkiyə Respublikasının tələbə-gəncləri təşkil edir. Bununla yanaşı, Naxçıvan Dövlət Universitetinin Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa, Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası, Rusiya, Macarıstan, Misir Ərəb Respublikası, Pakistan İslam Respublikası, Cənubi Koreya Respublikası, Çin Xalq Respublikası, Avstriya və digər ölkələrin universitetləri ilə əməkdaşlıq əlaqələri getdikcə genişlənir. Naxçıvan Dövlət Universitetinin nümayəndə heyətinin ötən il 8-16 iyul tarixlərdə Türkiyənin prestijli universitetlərinə rəsmi səfər etməsi bir daha bunu təsdiq edir. Qeyd etmək yerinə düşər ki, ötən ildə baş tutan bu səfər çərçivəsində Türkiyənin ən nüfuzlu universitetləri ilə beynəlxalq səviyyədə əməkdaşlıq müqavilələri imzalanmışdır. Əlavə olaraq 3 sentyabr 2021-ci il tarixdə “Times Higher Education” (The World University Rankings 2022) dünya universitetləri portalında reytinq sıralamasında dünyanın ən yaxşı universitetləri arasında Naxçıvan Dövlət Universiteti də yer almışdır. Ali təhsil ocağına müəyyən vaxtlarda səfər etmiş diplomatik səfir və nümayəndələr ilə akademik və rəsmi səviyyədə görüşlər keçirilmiş, həmin ölkələrin ali təhsil müəssisələri ilə də beynəlxalq əlaqələrin qurulması sahəsində bir sıra addımlar atılmışdır. Universitetin beynəlxalq əlaqə müstəvisində ard-arda əldə etdiyi bu uğurlar isə özlüyündə tariximizin səhifələrinə günümüzün reallıqları kimi yazılır. Ali təhsil ocağının son dövrlərdə qazandığı bir uğuru da məxsusi olaraq vurğulamaq lazımdır ki, dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan “Times Higher Education” 2022-ci il “The İmpact Ranking” reytinqini açıqlayıb və siyahıda Naxçıvan Dövlət Universiteti də öz layiqli yerini tutub.



Yazımızın əvvəlində də qeyd etdiyimiz kimi, bu ali təhsil ocağının qarşılıqlı əlaqələri yalnız region universitetləri ilə məhdudlaşmır, Naxçıvan Dövlət Universiteti həm də dünyanın bir sıra prestijli təhsil müəssisələri, o cümlədən Yaponiyanın ən nüfuzlu ali təhsil ocaqları ilə də diplomatik əlaqələr qurub. Bu mənada, diqqətə çatdıraq ki, universitetin rektoru Elbrus İsayevin rəhbərlik etdiyi nümayəndə heyətinin cari ilin iyun ayında Tokio Universitetinin Hiratsuka şəhərində yerləşən Şonan kampusuna gəlişi və burada qarşılıqlı əməkdaşlıq barədə müzakirələrin aparılması, o cümlədən nümayəndə heyətinin Yaponiyada nüfuzlu Asiya universitetlərinin Sammitində iştirak etməsi adıçəkilən qarşılıqlı əlaqələrin bariz nümunəsidir.

Naxçıvan Dövlət Universitetinin son uğurlu addımı isə muxtar diyarımızda təşkil edilən və ölkəmizdə bir ilk olan I Beynəlxalq Tibbi Forumda yaxından iştirak etməsi, qardaş Türkiyə Respublikasının və regionun bir sıra tanınmış ali təhsil ocaqları ilə qarşılıqlı əlaqələrin qurulması ilə həyata keçirildi. Forumun əsas qayəsindən də aydın oldu ki, Naxçıvan Dövlət Universitetinin gələcək inkişafında, yenilikçi ruhunda bu forumun böyük əhəmiyyəti olacaq. Ali təhsil ocağının bir sıra nüfuzlu universitetlərlə, habelə Azərbaycan Tibb Universiteti, İstanbul Yeddetəpə Universiteti və Qaradəniz Texniki Universiteti ilə memorandumların imzalanması, fövqəladə görüşlərin keçirilməsi, iyirmidən çox ali təhsil ocağının səkkiz ölkədən və üç yüzdən çox alim və mütəxəssisin bu səfərdə iştirak etməsi gələcəkdə istər Naxçıvan Dövlət Universitetinin karyerasına, istərsə də muxtar respublikamızın səhiyyəsinə öz layiqli töhfəsini verəcək.

Uzun illər, hətta ilk yarandığı dövrdən ali təhsil ocağında pedaqoji fəaliyyət göstərən professor-müəllim kollektivi ilə də səmimi, maraqlı söhbət edərək universitetimizin keçdiyi tarixi inkişaf yoluna birgə nəzər saldıq, ötən zaman müddətində burada yaradılan uğurlarla, onların gözü ilə daha yaxından tanış olduq.

İlk həmsöhbətimiz 80 illik ömrünün 50 ildən artıq bir müddətini məhz Naxçıvan Dövlət Universitetində gələcəyin savadlı tarixçilərini yetişdirməyə həsr edən tarix üzrə fəlsəfə doktoru, dosent ***İsmayıl Zeynalov*** oldu. 1969-cu ildən bu ali təhsil ocağında elmi-pedaqoji fəaliyyətə başlayan İsmayıl müəllim dedi: – Pedaqoji fəaliyyətimə hələ bu ali təhsil ocağı – Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı olduğu vaxtlardan başlamışam. Keçmiş postsovet məkanında olan çətinliklər, gərgin proseslər, təbii ki, təhsil sahəsini də alt-üst etmişdi. Onda nəinki Naxçıvanda, ölkənin heç bir yerində belə gözəl binalar, səliqə-sahman yox idi. Bu ali təhsil ocağı elm yoluna yeni qədəm qoyduğu illərdə bir binada dərs keçirdik. Şəraitsizlik ucbatından təbiət hadisələri qabağında aciz qalırdıq. Yağış yağanda palçığa batmayaq deyə, müəllimlər özləri bu şəraitə uyğun nəsə etməyə çalışırdı. Xatırlayıram ki, qışın soyuğunda, sazağında şəraitsiz sinif otaqları sanki tələbələrimizin zehnini də iflic edirdi. Təhsil almaq üçün gənclərimizin çəkdiyi çətinliklər, nəqliyyatın azlığı, yararsız mühit, kitabxana və elektron avadanlıqların yox dərəcəsində olması tamam başqa bir əzab-əziyyət idi. Nə yaxşı ki həmin günlər geridə qalıb. İndi şükürlər olsun ki, hər fakültə ayrıca binada fəaliyyət göstərir, binalarımız təmiz, işıqlı və rahatdır. Bu gün tələbələrə deyirəm ki, indi oxumamaq günahdır. Axı bu qədər gözəl şərait, rahat sinif otaqları, çoxsaylı dərs vəsaitlərinin qabağında nə bəhanə edib oxumamaq olar? Şükürlər olsun ki, gənclərimizin əksəriyyəti də qurub-yaradılan imkanlardan yaxşı faydalanır, dərslərinə yaxşı hazırlaşmaqla bərabər universitetin ictimai işlərində də canla-başla çalışır.

Naxçıvan Dövlət Universitetinin dosenti, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi ***İman Cəfərov*** ölkəmizdə milli maraqlara söykənən gənclər siyasətindən söhbət açaraq dedi: – Ulu öndərin milli ideologiyasının əsasında dayanan dövlət gənclər siyasəti əsrlərboyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı ulu öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edib. Bu gün də Naxçıvanımızda ulu öndər ideyalarının qorunub yaşadılması etimada sədaqətin ən gözəl bəhrəsidir. Arif insanlar həmişə deyir ki, xeyirxah, vətənpərvər, yaradıcı, həyatının hər anı xalqının taleyinə bağlı olan dahi insanlar haqqında heç vaxt keçmiş zamanda danışmırlar. Çünki onların ideyaları həmişəyaşardır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də xalqın böyük mənəvi dəyərinə, ümid və and yerinə çevrilməklə əbədiləşib. Dahi şəxsiyyətin əsasını qoyduğu təhsil siyasətinin prinsiplərini əldə rəhbər tutaraq Vətəninə, xalqına layaqətlə xidmət edəcək mütəxəssislər hazırlamaq üçün var qüvvəmizlə çalışacağıq.

*Elm və təhsil ümmanında 55 illik şərəfli yol qət edən, bir çox çətinliklərə sinə gərib bu gün özünün ən gözəl çağını, inkişafını, tərəqqisini yaşayan, hər birimizə doğma olan, neçə-neçə ziyalıları ölkəmizdə və muxtar respublikamızda, habelə ölkə hüdudlarından kənarda da savadlı, potensial bir kadr kimi yetişdirən və tanıdan doğma Naxçıvan Dövlət Universiteti ölkəmizin ali təhsil kəhkəşanında bundan sonra da zirvələrdə parlayacaq, gələcək nəsillərin də elm, təhsil yoluna ziya saçacaq.*

✍ Məcid RƏŞADƏTOĞLU

Ailə təsərrüfatlarımız

## Yay süfrəsinin ürək sərinlədən, şirin tamlı qidası...

*Elə ki yayın cansıxıcı istiləri başladı, böyükdən-kiçiyə hər bir naxçıvanlı tez-tez şəhərin, kəndin oturaq həyatından uzaqlaşıb cana məlhəm kimi yayılan sərin dağ havasının pərvazlandığı təbiət qoynuna üz tutar, isti günlərdə ləziz, sərinləşdirici təamlarla bəzənən süfrə qarşısında mədəni istirahətlərini təmin edərlər. Şən, deyə-gülə yeyilən bu təamlar sırasında zəhmətkeşliyin, əməksevərliyin bəhrəsi sayılan nələr olmaz ki, nələr... Pendir, qatıq, şor, ayran, dovğa, pomidor, xiyar, müxtəlif göyərtilər... “Yay süfrəsinin olmazsa olmazlarından, ürək sərinlədən, şirin tamlı qidası sayılan qarpız yaddan çıxdı” dediyinizi duymaq heç də çətin deyil, əziz oxucularımız. Bəli, ilin bu vədəsində hara üz tutsaq, qarşımıza çıxan, dükan-bazarı, bölgələrimizə uzanan magistral yolların kənarlarında düzülən piştaxtaları bəzəyən, gündə azı bir dənəsinin dadına baxdığımız bu bostan bitkisini unutmaqmı olar heç? Əsla. Yazımızın əsas mövzusu da elə qarpızdır. Özü də Naxçıvanımızın hər yerində adla deyilən Nehrəm qarpızı...*

Yəqin, mənimlə çoxları razılaşar ki, “Nehrəm”, “əkin-biçin işləri”, “meyvə-tərəvəz, bostan bitkiləri” sözləri bir arada eşidiləndə, heç şübhəsiz ki, yaddaşlarda ilk canlanan, ağıla gələn insan məhz Cəmşid Həsənov olur. Bu da təsadüfi deyil. Atalarımızın “Əmək insanı ucaldar”, “Çalışqan əl nəyə dəysə qızıl olar”, “Zəhmətsiz tapılan aşdan, zəhmətlə tapılan daş yaxşıdır” deyimlərinin əyani ifadəsini məhz bu təsərrüfatçının fəaliyyətində sezmək çətin deyil. Uzun illərdir, əkin-biçin işləri ilə ailəsinə gün-güzəran yaradan, muxtar respublikamızın bazarlarını keyfiyyətli məhsullarla təmin edən Cəmşid kişi meyvə-tərəvəzin dilini bildiyi qədər həm də insanlarla mehriban, ün-



siyyətcil, səmimi müsahib olmağı da yaxşı bacarır. Əbəs yerə deyil ki, qəsəbə camaatının xətir-hörmətini qazanan təsərrüfat adamı ötən ilin iyul ayından Nehrəm bələdiyyəsinin sədri kimi məsul vəzifəni də icra edir. Elə Nehrəm qarpızının yetişdirilmə üsulları barədə öyrənmək üçün qəsəbədən soraq aldıqda sakinlərin Cəmşid Həsənovu nişan verəcəkləri də əvvəlcədən gün kimi aydın idi. Zəhmət adamı ilə söhbətimiz təsərrüfat işlərini görən zaman baş tutdu.

Cəmşid kişi bildirdi ki, gözümü açıb özümü dərk edəndən atam Xəlilin, əmilərim Hüseynqulu və Cəlilin əkinçiliklə məşğul olduqlarını görmüşəm. Digər tərəvəz məhsulları kimi, qan təzyiqini tarazlamaqdan sağlam arıqlamağa qədər çoxsaylı faydaları olan qarpızın becərilmə üsullarını da adını çəkdiyim böyüklərimdən görüb-götürmüşəm. Babək rayonunda ilk qarpız təsərrüfatı babam Heydərqulu kişiyə məxsus olub. Belə ki, 1960-1965-ci illərdə babam övladları ilə birgə Naxçıvan-Culfa yolundakı “Pircüvar” düzündə 0,8 hektar ərazidə qarpız əkini həyata keçirib. O zamanlar indiki kimi müasir texnika və vasitələr olmadığından primitiv üsullarla bu məhsulu becərməyə çalışıblar. Çəkdikləri zəhmət hədər getməyib, bir neçə il ərzində yaxşı məhsul götürüblər. Sonralar rayonun digər sakinləri də babamdan becərmə üsullarını öyrənərək özlərinəməxsus qarpız təsərrüfatları yaradıblar. Mən də məktəbli yaşımdan əkin-biçin işlərinə maraqlı olmuşam. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra isə ilbəil əkin ərazilərimi, təsərrüfatımı xeyli genişləndirib, ailəmə gün-güzəran yaratmışam. Qarpız, qovun əkini də ailə təsərrüfatımın ayrılmaz parçasına çevrilib.

Mövsüm zamanı 35-ə yaxın insanı təsərrüfatında işlə təmin edən Cəmşid Həsənov qeyd etdi ki, Nehrəm torpağının münbitliyi, tərkibindəki mineral maddələr burada tərəvəzçiliyin, bostan bitkilərinin, o cümlədən də qarpızın keyfiyyətliliyini, məhsuldarlığını şərtləndirir. Ancaq bol məhsul əldə etmək üçün gərəkdir ki, məhsulun yetişdirilməsi üsullarını, aqrotexniki qaydaları düzgün bilib vaxtında və dəqiq yerinə yetirəsən. Qarpız əkini iki üsulla – şitil və toxumla həyata keçirilir. İllərdir, qazandığım təcrübə toxumla əkinin daha əlverişli olduğunu göstərib. Əvvəllər toxum sarıdan çətinliklərimiz var idi. Ancaq “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin fəaliyyətə başlaması işimizi xeyli asanlaşdırıb. İndi mövsüm vaxtı daha əvvəlki kimi tədirgin olmadan, rahat şəkildə keyfiyyətli toxum sortlarını əldə edib torpaq sahəmizdə əkirik. Təsərrüfatımızda Hollandiya, Adana, Sabirabad qarpız sortlarına, türkmən qovunu növünə üstünlük veririk. Elə ki novruzgülü baş qaldırdı, ailəliklə əkin ərazilərimizə üz tuturuq. Mart ayında payızda şumladığımız ərazini yenidən əkinə hazır vəziyyətə gətiririk. Həmin ayın 23-dən aprelin 4-nə kimi, havaların yağıntılı dövründə qarpız əkinini icra edirik. Təcrübəmə əsasən deyim ki, qarpız elə də çox susevər deyil, 20-25 gündən bir suvarmaq kifayətdir ki, yaxşı məhsul hasil olsun. Mövsüm ərzində 3-4 dəfə suvarmaq bəs edər. Alaqlama, seyrəltmə, dibdoldurma, gübrələmə, tağların kökləndirilməsi, ucvurma, süni, yaxud əlavə tozlandırma, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərini də vaxtlı-vaxtında icra etmək lazımdır. İyunun sonu, iyulun əvvəllərində artıq məhsul tədarükü başlayır. Fəxrlə deyim ki, ötən il əkdiyim 20-25 hektar ərazidən 25-30 tona qədər qarpız yığmışam. Cari ilin yaz əkinləri də ürəyimcə olub, məhsuldarlıq yüksəkdir. Hazırda taxıl biçdiyim ərazidə də payızda turşusunu, arağını, mürəbbəsini hazırlamaq üçün qarpız əkini həyata keçirmişəm.



Muxtar respublikamızda fermerlərə, təsərrüfat adamlarına böyük diqqət və qayğı ilə yanaşıldığını vurğulayan Cəmşid Həsənov qeyd etdi ki, dövlət maliyyə yardımı hesabına əkin-biçin, istehsal proseslərində lazım olan texnikaları sərfəli şəkildə əldə edib: – Qarpız, qovun arağını hazırlamaq üçün Ukrayna istehsalı olan filtir və aparatı da dövlətimizin dəstəyi ilə almışam. Araqla yanaşı, qarpızın turşusunu, mürəbbəsini də hazırlayıb sərfəli qiymətə alıcılara təklif edirəm. Məhsullarımın tanıdılması baxımından muxtar respublikamızda keçirilən festivalların, satış yarmarkaların xüsusi əhəmiyyəti vardır. 2019-cu il, bu mənada, mənimçün olduqca əlamətdar və yaddaqalan oldu. Belə ki, həmin ilin payız ayında keçirilən “Ailə təsərrüfatı məhsulları” festivalında məhsullarımı geniş kütləyə tanıtmaqla yanaşı, “Ən yaxşı məhsul” nominasiyası üzrə keçirilən müsabiqədə qalib oldum. Ümumiyyətlə, ömrünü təsərrüfat işlərinə həsr edən bir insan kimi dövlətimdən çox razıyam, uğurlar qazanmağımda zəhmətkeşlik, ailəmin dəstəyi bir yana, dövlətimizin qayğısı həlledici rol oynayıb. Mənimlə yanaşı, bu gün rayonumuzda, qəsəbəmizdə əlverişli imkanlar hesabına onlarla təsərrüfat yaradıb, iş-güc sahibi olanlar vardır. Qəsəbəmizin bütün zəhmətkeşləri adından dövlətimizə minnətdarlıq edirəm.

*Böyük şairimiz Nizami Gəncəvi deyirdi ki, torpağa mərhəmət xeyirdir inan, lütf etsən gül verər, zülm etsən tikan. Bu gün hər bir naxçıvanlı təsərrüfatçı bu kəlamda söylənilən həqiqətin mahiyyətinə dərindən varıb, dövlətimizin yaratdığı imkanlardan səmərəli faydalanaraq torpağa mərhəmət göstərib, lütf etməklə öz həyatlarına, yaşayışlarına, ümumilikdə isə muxtar respublikamızın iqtisadi qüdrətinə töhfələr verirlər. Adı dillərdə gəzən, yay süfrəmizin bəzəyinə çevrilən Nehrəm qarpızının şan-şöhrətini daha da ucaltmaq amalı ilə çalışan, əməyi güllər açan Cəmşid Həsənov kimi...*

**Nail ƏSGƏROV**

## Sənayenin inkişafına dövlət maliyyə dəstəyi göstərilir

Muxtar respublikada çoxşaxəli iqtisadiyyatın formalaşdırılması, sənaye müəssisələrinin yaradılması, mövcud müəssisələrin fəaliyyətinin genişləndirilməsi 2022-ci ilin birinci yarım ilində də davam etdirilmişdir. Bu ilin ilk yarısında Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına sənayeyönümlü 15 layihəyə 4 milyon 903 min manat kredit verilmişdir. Hazırda 3 istehsal korpusundan ibarət olan Şərur Sənaye Məhəlləsində ayaqqabı, Avropa qapıları, bərk və yumşaq mebel istehsalı sahələri fəaliyyət göstərir. Həmçinin corab istehsalı, məktəbli ləvazimatları, kağız kisə, karton tara, süd məhsullarının emalı və qablaşdırılması, meyvə-tərəvəzin konservləşdirilməsi və qurudulması və bitki yağı istehsalı sahəsinin qurulması istiqamətində işlər davam etdirilir. Sahibkarlığın İnkişafı Fondu tərəfindən kənd təsərrüfatı yönümlü layihələrə 1 milyon 36 min manat güzəştli kredit verilmişdir. Bununla yanaşı, kənd təsərrüfatının müxtəlif sahələri üzrə fəaliyyət göstərən ailə təsərrüfatlarına Sahibkarlığın İnkişafı Fondu tərəfindən cari ilin ötən dövrü ərzində 766 min manat dövlət maliyyə dəstəyi də göstərilmişdir. Muxtar respublikada sahibkarlığın inkişafını daha da sürətləndirmək və onların fəaliyyətinə mane olan əsassız müdaxilələrin qarşısını almaq məqsədilə cari ilin ilk yarısında xüsusi fəaliyyət növləri üzrə 144 icazə, 691 lisenziya verilmişdir.

**Xəbərlər şöbəsi**

## Yerli istehsal məhsulları yüksək keyfiyyət göstəricilərinə malikdir

***Muxtar respublikada yerli məhsulların standartların tələblərinə uyğun istehsalının təşkil olunması məhsulların ixrac potensialının artırılmasına, daxili bazarlarda yanaşı, xarici bazarlarda da mövqeyinin möhkəmləndirilməsinə səbəb olur. Bu baxımdan keyfiyyətin artırılması və rəqabətədavamlı məhsul istehsalının təşkili qarşıya qoyulmuş mühüm vəzifə kimi qəbul edilmiş, ötən ay, ümumilikdə, məhsulların 78, o cümlədən qida məhsullarının 59 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.***

“2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində aidiyyəti orqanların nümayəndələri ilə birlikdə Şahbuz rayonunun Batabat yaylağında arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüş keçirilmiş, bal məhsulunun fiziki-kimyəvi göstəricilərinə dair müvafiq standartdan çıxarışlar təqdim olunmuş, bal məhsulunun 1 halda laboratoriya analizi aparılmış, nəticələrinin standartın tələblərinə uyğunluğu müəyyən edilmişdir.

Qəbul edilmiş müvafiq Dövlət proqramlarının icrası istiqamətində ötən ay emal olunmuş kənd təsərrüfatı məhsullarının 25, meyvə-tərəvəz məhsullarının isə 12 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin standartlara uyğunluğu müəyyən olunmuşdur. Hesabat dövründə ailə təsərrüfatlarında və müəssisələrdə istehsal edilən emal olunmuş kənd təsərrüfatı məhsulları üçün, ümumilikdə, 5 etiket layihəsi hazırlanmış və aidiyyəti üzrə təhvil verilmişdir. “2022-ci ilin Naxçıvan Muxtar Respublikasında “Sənaye ili” elan edilməsinə dair Tədbirlər Planı”nın icrası istiqamətində iyun ayı ərzində sənaye məhsullarının 56 halda laboratoriya analizləri aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir. “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası çərçivəsində “Naxçıvan qovurması”nın istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə bağlı aidiyyəti qurumların əməkdaşları ilə



birlikdə Kəngərli rayonunun Çalxanqala kəndində ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, “Naxçıvan qovurması” əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. Görüşlər zamanı ailə təsərrüfatı məhsullarının tədarükünü və satışını asanlaşdırmaq məqsədilə ölkəmizin digər bölgələrində ailə təsərrüfatı məhsullarının satışını həyata keçirən təsərrüfat subyektlərinə məxsus 30 ünvan kartı ailə təsərrüfatı nümayəndələrinə paylanılmışdır.

Hesabat ayında 2 ailə təsərrüfatı üçün istehsal etdikləri məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılması, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə 3 etiket layihəsi hazırlanmış, bununla yanaşı, 120 hazır etiket ailə təsərrüfatlarına təqdim edilmişdir. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 10 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin standartların tələblərinə uyğunluğu müəyyən edilmişdir. “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası üzrə aid qurumların və müvafiq yerli icra hakimiyyətlərinin əməkdaşları ilə birlikdə Culfa rayonunun Camaldın kəndində seminar-müşavirə keçirilmiş, iştirakçılara bukletlər və kənd təsərrüfatı məhsulları üzrə standartlarda müəyyən edilmiş təhlükəsizlik tələblərinə dair çıxarışlar təqdim olunmuşdur. “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində muxtar respublika üzrə heyvandarlıq məhsullarının emalı və qablaşdırılmasını həyata keçirən müəssisələrin reyestrində aktuallaşdırma işləri aparılmış, müvafiq reyestrdən çıxarış Dövlət Baytarlıq Xidmətinə göndərilmişdir. Bu istiqamətdə fəaliyyət davam etdirilməkdədir.

2017-ci il 25 iyul tarixli beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması, qarşıdakı dövrdə bu imkanların bir daha araşdırılması, ixracın coğrafiyasının genişləndirilməsi üçün verilmiş tapşırıqların, “Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı”nın icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində Bakı şəhəri və digər bölgələrimizə tələbata uyğun olaraq davamlı qaydada ailə təsərrüfatı məhsullarının göndərilməsi təmin edilir.

Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilmiş müşavirədə verilən tapşırıqların və “Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı”nın icrası istiqamətində qida məhsullarının istehsalı, daşınması, saxlanması və satışı zamanı tibbi-bioloji tələblərə, sanitar-gigiyena norma və qaydalarına əməl olunması istiqamətində nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə Gigiyena və Epidemiologiya Mərkəzi ilə birgə muxtar respublikada qida məhsullarının istehsalı, ticarət və xidmət sahələri üzrə fəaliyyət göstərən 30 təsərrüfat subyektinə baxış keçirilmiş, 12 təsərrüfat subyektində aşkar olunmuş nöqsanlar aradan qaldırılmışdır. Bu ilin 13 iyun tarixində Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabəti sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə verilmiş tapşırıqların icrası istiqamətində Dövlət Baytarlıq Xidmətinin əməkdaşları ilə birgə heyvan mənşəli məhsul istehsal edən 3 müəssisədən 3 halda



nümunələr seçilərək laboratoriyaya təqdim edilmiş, analizlər üzrə heyvan mənşəli xəstəliklər və ya bakteriya aşkar olunmamışdır. Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə idxal olunan qızdırıcı elektrik və qaz cihazlarına baxış keçirilmiş, müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan cihazların idxalına icazə verilməmişdir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat xidməti***

## Ötən ay 139-cu teatr mövsümünün bağlanışı olub

*İyun ayında muxtar respublikanın mədəniyyət müəssisələrində tarixi və əlamətdar günlər, tanınmış şəxsiyyətlərin anım günləri və yubileyləri ilə bağlı tədbirlər keçirilmiş, ustad və açıq dərslər təşkil edilmiş, sərgilər qurulmuş, eləcə də oxunması zəruri olan kitabların müzakirələri keçirilmişdir.*



Hesabat ayında muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin teatr studiyaları arasında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilmiş müsabiqənin, eləcə də "Gənclərin teatr dünyası" müsabiqəsinin və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Milli dəyərlərimiz ornamentlərdə" adlı rəsm müsabiqəsinin yekun tədbirləri və mükafatlandırma mərasimləri keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamının icrası ilə əlaqədar olaraq Naxçıvan Musiqi Kollecinin bir qrup tələbəsinin M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında təcrübə keçməsi təmin olunmuşdur. İyun ayında Naxçıvan şəhərində yerləşən "Gənclik" Mərkəzində Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının müəllim və şagirdlərinin "Şuşa ili"nə həsr olunmuş "Cənnətim Qarabağ" adlı musiqili-ədəbi kompozisiyası təqdim edilmişdir. "Şuşa ili" ilə bağlı 3 tədbir keçirilmişdir.

Ötən ay muxtar respublikanın muzeylərini 59 min 234 yerli, 19 min 253 əcnəbi olmaqla, ümumilikdə, 78min 487 tamaşaçı ziyarət etmiş, muzeylərə 70-i yeni, 737-si digər muzeylərdən fondun yerdəyişməsi yolu ilə olmaqla, ümumilikdə, 807 eksponat daxil olmuşdur.

Təhsil və Mədəniyyət nazirliklərinin birgə qrafikinə əsasən ötən ay muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün muzeylərdə, ümumilikdə, 14 açıq dərs keçilmiş, 8 mühazirə oxunmuşdur. Muzeylər tərəfindən şəhidlərimizin doğum və anım günləri, əlamətdar və tarixi günlər, tanınmış şəxsiyyətlərlə bağlı və digər bu kimi mövzularda 358 sayda material hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır. İyun ayında muxtar respublika kitabxanaları tərəfindən 129 tədbir keçirilmiş, həmçinin sağlamlıq imkanları məhdud 30 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Eyni zamanda iyun ayında kitabxanaların, eləcə də klub müəssisələrinin əməkdaşları arasında "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan 21 kitabın müzakirəsi keçirilmişdir. Ötən ay muxtar respublika kitabxanalarına 424 adda 484 nüsxə çap məhsulu daxil olmuşdur. Həmçinin kitabxanalara bu ilin iyun ayında 1230 yeni oxucu müraciət etmiş, oxucu gəlişi 9 min 365, kitab verilişi isə 51 min 95 nüsxə olmuşdur. Bundan başqa, hesabat ayında elektron kataloqa 662 adda kitab işlənərək elektron kataloqdakı kitabların sayı 33 min 36-ya, şəbəkəyə işlənmiş (PDF) kitabların sayı isə 50 olmaqla belə kitabların sayı 3 min 923-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan 131 lokal, 395 qlobal olmaqla, ümumilikdə, 526 oxucu istifadə etmişdir.

İyun ayında rayon mədəniyyət saraylarının, mədəniyyət evləri və klubların folklor qrupları və dərnək üzvlərinin ifasında xalq oyun və mərasimlərinin, yallı, rəqs və musiqi nömrələrinin Naxçıvan Dövlət Film Fondu tərəfindən videoçəkilişi aparılmışdır. Fond tərəfindən "Kino günləri" layihəsi çərçivəsində açıq havada 4 film nümayiş edilmişdir.

Ötən ay Naxçıvan Dövlət Milli Dram Teatrında, Naxçıvan Dövlət Kukla Teatrında və Naxçıvan Dövlət Uşaq Teatrında Azərbaycanın görkəmli sənətkarlarının bir sıra əsərləri əsasında səhnələşdirilən tamaşaların məşqləri aparılmış, Naxçıvan Dövlət Uşaq Teatrında C.Məmmədquluzadənin "Saqqallı uşaq", Naxçıvan Dövlət Milli Dram Teatrında isə İ. Əfəndiyevin "Xurşidbanu Natəvan" əsəri əsasında hazırlanan eyniadlı tamaşalara ictimai baxış keçirilmişdir. Bundan başqa, iyun ayında Naxçıvan Dövlət Milli Dram Teatrı muxtar respublikanın Ordubad, Culfa və Şahbuz rayonlarında "Ana" və "Teleskop" tamaşaları ilə qastrol səfərlərində olmuş, Naxçıvan teatrı 139-cu mövsümünü başa vurmuşdur. İyun ayında Şahbuz Rayon Xalq Teatrı "Çimnaz xanım yuxudadır", Naxçıvan Şəhər Xalq Teatrı "Bığ", Ordubad Rayon Xalq Teatrı isə "Əliqulu evlənir" adlı tamaşaları təhvil vermişlər.

Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivlərinin yeni repertuarlarının məşqləri aparılmış, kollektivlər iyun ayında muxtar respublikada keçirilən tədbirlərdə konsert proqramları ilə çıxışlar etmişlər. İyunun 15-də Naxçıvan Dövlət Filarmoniyasının birləşmiş orkestrinin Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinin qarşısında Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təqdim olunmuşdur. Hesabat ayında nazirliyin Gənclər Təşkilatının üzvləri arasında Azərbaycan ədəbiyyatının klassiklərinin əsərlərinin müzakirəsi keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## İyun ayında idmançılarımız 54 medal qazanıblar

*Ötən ay bədən tərbiyəsi və idmanın inkişafı, könüllülərlə işin təşkili, gənc nəslin sağlam, vətənpərvər ruhda formalaşdırılması və onların cəmiyyətdəki aktivliyini artırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilib.*



Muxtar respublika gənclərinin iştirakı ilə təşkil olunan "Səhnənin sehri" və "Gənclərin teatr dünyası" (14-30 yaşlılar) adlı teatr müsabiqələrinin mükafatlandırma mərasimləri keçirilib. Könüllülərlə iş, gənclərin şəxsi inkişafı və onların cəmiyyətə faydalı vətəndaş kimi formalaşdırılması istiqamətində görülən işlərin davamı kimi "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir!" devizi ilə təmizlik aksiyası və "İlkin tibbi yardım" təlimi təşkil olunub, bir könüllü gəncin Tovuz rayonunda düşərgə formatında həyata keçirilən "Gənclər davamlı inkişaf üçün" layihəsində iştirakı təmin edilib. Muxtar respublikanın şəhər və rayonlarını təmsil edən 8 komandanın iştirakı ilə gənc dövlət qulluqçuları arasında "Xəmsə" milli intellektual oyunu reallaşıb. Gənclərin Vətən müharibəsi iştirakçıları, eləcə də Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində zabit və əsgərlərlə görüşləri təşkil edilib, şəxsi heyətin xidməti şəraiti ilə tanışlıq olub, gənclər hərbçilərlə birgə konsert proqramında iştirak ediblər. Şəhər və rayonlarda şəhid ailələrinin ziyarət olunması ənənəsi davam etdirilib, şəhidlərin əziz xatirəsinə həsr olunan idman yarışları, eləcə də Silahlı Qüvvələr Günü və "Şuşa ili" ilə əlaqədar tədbirlər keçirilib.

Hesabat ayı muxtar respublikanın idman həyatı üçün qazanılan fərdi nəticələr, kollektiv fəaliyyət və bir sıra tədbirlərin keçirilməsi ilə yadda qalıb. Uşaqları Beynəlxalq Müdafiə Günü və "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun yaradılmasının 55-ci ildönümü münasibətilə "Bir uşaq-bir top" festivalı keçirilib. Tədbirdə şəhid ailələri, qazilər, tanınmış veteran futbolçular, gənc futbolçular və ictimaiyyət nümayəndələri iştirak ediblər. Festival çərçivəsində bol hədiyyəli oyunlar, əyləncəli şoular, klubun və Naxçıvan futbolunun tanıtımı ilə bağlı təqdimatlar olub, uşaqlara "Araz-Naxçıvan"ın atributları hədiyyə edilib, tamaşaçılar üçün iaşə xidməti və konsert təqdim olunub. Sərbəst güləş üzrə milli komandamızın liderlərindən olan üççat dünya və Avropa çempionu, ikiqat olimpiya mükafatçısı, dünyaca tanınmış güləşçimiz Hacı Əliyev Naxçıvan güləşçiləri ilə görüşüb, onlarla öz təcrübəsini bölüşüb. Bununla yanaşı, Naxçıvanda badminton üzrə beynəlxalq lisenziyalı "Level 1" məşqçilik kursuna start verilib, İqdır Universiteti və Naxçıvan Dövlət Universitetinin basketbol komandaları arasında yoldaşlıq matçı, Vətən müharibəsinin iştirakçıları arasında stend atıcılığı, 18 yaşadək idmançılar arasında şose velosipedi, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında güllə atıcılığı üzrə muxtar respublika birinciliklləri, həmçinin idman işçiləri arasında stolüstü tennis yarışı reallaşıb. Uzunoba İstirahət Mərkəzində növbəti çimərlik mövsümü münasibətilə açılış mərasimi keçirilib.

Ötən ay idmançılarımız ölkə və beynəlxalq arenalarda uğurla çıxış edərək, ümumilikdə, 54 medal əldə ediblər. Əli Əsgərov güc idman növləri üzrə Avrasiya çempionatında qızıl, Sadiq Kərimov universal döyüş üzrə dünya çempionatında iki bürünc medal qazanıb, Əli Hüseynzadə isə "İqdır Kayısı Cup" şahmat turnirinin qalibi olub. Turnirdə iştirak edən Naxçıvan şahmatçıları müxtəlif kateqoriyalar üzrə 4 birincilik, 2 ikincilik və 1 üçüncülük əldə edib, bir idmançımız isə "Ən yaxşı qız şahmatçı" kimi mükafatlandırılıb. Bundan əlavə, Nazlı Hümbətova şahmat üzrə Azərbaycan çempionatında 16 yaşlı qızlar arasında qalib olub, I Beynəlxalq Zəncan turnirində iştirak edən şahmatçılarımız isə yarışı 2 medalla (1 gümüş, 1 bürünc) tamamlayıblar. Atletika üzrə ölkə çempionatlarında Aysu Abbasova (4 qızıl) və Əmrah Nağıyev (1 qızıl, 1 gümüş) yüksək nəticələrə nail olub, digər atletlərimiz isə 1 gümüş və 2 bürünc medal qazanıblar. MMA, pankration və qreppling üzrə Azərbaycan birinciliyi və çempionatı, həmçinin respublika turnirinə (8-9 və 10-11 yaşlılar) qatılan kikboksçularımız 10-u qızıl, 9-u gümüş, 8-i bürünc olmaqla komanda aktivinə 27 medal yazdırıblar. Güləşçilərimiz xarici ölkə idmançılarının qatıldığı "Şuşa – 270" turnirində 3 bürünc, bir karateçimiz isə açıq birincilikdə qızıl medal qazanıb.

İdman federasiyaları üçün mütəmadi təşkil olunan ekskursiyalar çərçivəsində Atıcılıq, Hava və Ekstremal İdman Növləri, Paralimpiya və Kikboksinq federasiyalarının təmsilçiləri müvafiq olaraq Milli Dəyərlər Muzeyi, Yusif Küseyir oğlu türbəsi, Duz Muzeyi və Qarabağlar Türbə Kompleksini ziyarət ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Gənc müəllimlər arasında şahmat üzrə muxtar respublika birinciliyi keçirilib

*İyulun 18-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin gənc müəllimləri arasında şahmat üzrə muxtar respublika birinciliyi keçirilib.*



Birinciliyin açılış tədbirində Naxçıvan Muxtar Respublikası Şahmat Mərkəzinin direktoru Emin Hacıyev bildirib ki, 1924-cü ilin iyulun 20-də Fransanın paytaxtı Parisdə FIDE təsis edilib və 20 iyul 1966-cı ildən Beynəlxalq Şahmat Günü kimi qeyd edilir. Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikamızda şahmatın inkişafı daim diqqət mərkəzindədir, bu idman növünün kütləvi hal alması üçün aparılan siyasət uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının sektor müdiri Rasim Rüstəmov çıxış edərək qeyd edib ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilə böyük diqqət və qayğı göstərilir. Bu qayğıdan pay sahibi olan şahmatı da xüsusilə qeyd etmək lazımdır. Belə ki, məktəblərdə şahmat I-IX siniflərdə bir fənn kimi tədris edilir. Həmçinin muxtar respublikamızın quruculuq coğrafiyasında şahmat mərkəzi və rayonlarda şahmat məktəbləri mühüm yer tutur.

Sonra birinciliyə start verilib. Ümumtəhsil məktəblərindən 40 müəllimin iştirak etdiyi şəxsi birincilik İsveçrə sistemi üzrə keçirilib və 5 turdan ibarət olub.

Birincilikdə qadınlar üzrə Nərmin İsmayılova, Fəridə Şükürova və Gülnar Bayramova ilk üç pillədə qərarlaşıblar. Kişilər arasında isə Turan Qasımov hamıdan güclü olub. Hüseyn Həsənov ikinci, Vüsal Məmmədov isə üçüncülüklə kifayətlənib.

Qaliblərə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin diplomları təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Xüsusi qayğıya ehtiyacı olan ailəyə baş çəkilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Ordubad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ordubad şəhəri, F.Zeynalov küçəsi, ev 12 ünvanında yaşayan xüsusi qayğıya ehtiyacı olan Əliyevlər ailəsinə baş çəkilib.

Görüş zamanı adıçəkilən təşkilatların əməkdaşları bildiriblər ki, dövlətimiz tərəfindən xüsusi qayğıya ehtiyacı olan ailələrə daim diqqət və qayğı göstərilir, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, müvafiq ailələrin sosial təminatlarının gücləndirilməsi istiqamətində ardıcıl olaraq tədbirlər həyata keçirilir.

Sonra xüsusi qayğıya ehtiyacı olan ailənin problemləri ilə maraqlanılıb, uyğun köməklik göstərilib.

Sonda ailənin üzvləri dövlətimiz tərəfindən onlara göstərilən dəstəyi yüksək qiymətləndirib, minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 18 iyul 2022-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 992 | 992 | 2870 | 28,9 |
| 2. | Şərur rayonu | 4038 | 3981 | 16252 | 40,8 |
| 3. | Babək rayonu | 11094 | 11094 | 35308 | 31,8 |
| 4. | Ordubad rayonu | 1607 | 1607 | 4663 | 29,0 |
| 5. | Culfa rayonu | 5711 | 5598 | 16912 | 30,2 |
| 6. | Kəngərli rayonu | 6056 | 5178 | 15519 | 30,0 |
| 7. | Şahbuz rayonu | 1527 | 1302 | 3702 | 28,4 |
| 8. | Sədərək rayonu | 2441 | 2441 | 8941 | 36,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33466** | **32193** | **104167** | **32,4** |

### İtmişdir

Şərur rayonunun Şəhriyar kənd sakini Məhərrəmov Azər İbrahim oğlunun adına olan JN-592A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 635